

# Nağməli məkan

**Onunla hər görüşümüzdən, işgüzar, səmimi söhbətlərimizdən xüsusi zövq alır, razı qalırıq. Bu dəfə də elə oldu. Sinif otaqlarını gəzdik, müəllimlərlə görüşdük, şagirdləri dinlədik. Yenə də yüksək təşkilatçılığın, ciddi intizamın, göz oxşayan səliqə-səhmanın şahidi kimi Qulu Əsgərov adına Salyan uşaq incəsənət məktəbindən dərin təəssürat, xoş duyğularla ayrıldıq.**

**Özü və çalışdığı kollektivin işi ilə bağlı qeydləri gözdən keçirərkən bir sıra məqamlar diqqətimizdən qaçmadı. Məktəblə onun arasında cəmi 1 yaş fərq var. Kimin ağlına gələrdi ki, 1960-cı ildə dünyaya göz açan Paşa vaxt gələcək ondan bir il sonra fəaliyyətə başlayacaq böyük bir məktəbə rəhbərlik edəcəkdir.**

Digər diqqət çəkən məqam sonu 1 rəqəmi ilə bitən illərin Paşa müəllim üçün düşərli olmasıdır. Fikir verin;

-1981-ci il! Lənkəran musiqi texnikumunu tar ixtisası üzrə bitirərək əmək fəaliyyətinə başlayıb.

- 1991-ci il! Azərbaycan Dövlət Konservatoriyasını bitirir və Mədəniyyət nazirinin 15 sentyabr 1991-ci il tarixli əmri ilə Qulu Əsgərov adına Salyan Uşaq İncəsənət Məktəbinin direktoru təyin olunur.

- 2001-ci il! YAP-ın üzvü və məktəbin ərazi partiya təşkilatının sədri seçilir.

- 2011-ci il! Paşa Nağıyevin rəhbərliyi altında məktəb özünün 50 yaşını qeyd edir...

Fərəh doğuran amillər çoxdur. Bu haqda aşağıda ətraflı bəhs edəcəyik. Hələlik isə həmsöhbətimizin ömür kitabından bəzi səhifələri vərəqləyək.

Nağıyev Paşa Əlibaba oğlu 1960-cı il noyabrın 26-da Salyan şəhərində anadan olub. 1968-ci ildə Salyan şəhərindəki 3 saylı məktəbin, bir il sonra isə musiqi məktəbinin birinci sinfinə gedib. 8-ci sinfi bitirdikdən sonra təhsilini Lənkəran musiqi texnikumunun xalq çalğı alətləri şöbəsində davam etdirir. Texnikumda oxuduğu dövrdə Sumqayıt şəhərində keçirilən (1979-cu il) Hacı Xanməmmədovun əsərlərindən ibarət müsabiqədə qalib gələrək laureat adı qazanıb.

1981-ci ildə musiqi texnikumunu tar və orkestr üçün dirijor ixtisası üzrə bitirib. Təyinatla Salyan uşaq musiqi məktəbinə tar müəllimi təyin edilib. Elə həmin il ordu sıralarına çağırılıb. Moskva şəhərində hərbi xidmətdən sonra əvvəlki iş yerində çalışıb. Ali





Bəsirzadə, Sevda Mehdiyeva, Elçin Abdullayev, Elmir Nəcəfov və başqa istedadlı uşaqlarla fəxr edir. Onların hər biri qoşulduqları müsabiqələrdə fəxri fərman, diplom və pul mükafatlarına layiq görülüblər.

Məktəbdə tədrisin yüksək səviyyədə qurulmasında qabaqcıl müəllimlərin- Sevindik İsmayılova, Aynurə Zöhrabova, Əlibəy İbrahimov, Aygün Bayramova, Gövhər Ağayeva və başqalarının xüsusi zəhmət payı vardır.

Çəkilən əmək, göstərilən qayğı təbii ki, nəticəsiz qalmır. Hər il məktəbi bitirən şagirdlərin böyük bir qismi ali və orta ixtisas məktəblərinə qəbul olunur. Keçən il bu cür məzunların sayı 16 nəfərə çatdırılmışdır.

təhsil alıb. 20 ildir ki, Q.Əsgərov adına Salyan Uşaq İncəsənət Məktəbinin direktorudur.

Ailəlidir. İki oğlu var.

Yuxarıda qeyd etdiyimiz kimi məktəb 1961-ci ildən fəaliyyət göstərir. 1991-ci ildən incəsənət məktəbinə çevrilib. Ən böyük uğurlarını məhz Paşa müəllimin rəhbərliyi dövründə qazanıb. Belə ki, həmin ildən başlayaraq məktəbdə dərslərin keçirilməsində, tədris işlərinin aparılmasında əsaslı dönüş yaradılıb.

Hazırda burada 454 nəfər şagird təhsil alır. Onların fortepiano, tar, kamança, qarmon, nağara, xanəndəlik, saz və təsviri incəsənət ixtisasları üzrə təlim-tərbiyəsi ilə 90 nəfər müəllim məşğul olur. Həmin kadrların hamısı məktəbin öz yetirmələridir.

Məktəb respublika və rayon tədbirlərinə, festival və müsabiqələrə fəal qoşulur, N saylı hərbi hissədə əsgər və zabitlər qarşısında maraqlı konsert proqramı ilə çıxış edir, bayram, tarixi əlamətdar günlər, mədəniyyət və incəsənət xadimlərinin yubileyləri ilə bağlı mərasimlərin yüksək səviyyədə təşkilinə nail olur.

Kollektiv haqlı olaraq İsmayıl Həsənov, Bəylər Qədirov, Rəşad Vəliyev, Balaş Zamanov, Rəman Səfərov, Həmidə Məlikova, Ceyhun Əzizov, Elməddin Abdullazadə, Famil Zülfüqarov, Nilufər Gözəlova, Zeynəb Qafarova, Emil Nəzərov, Aynur Abbasova, Əlövsət

**Məktəbin qazandığı uğurlara, onun qabaqcıl kadrlarla təminatına, tədris ocağında aparılan əsaslı təmir və bərpa işlərinə görə ən böyük "sağ ol" əlbəttə, ilk növbədə səriştəli təşkilatçı, vəzifəsinə məsuliyyətlə yanaşan nüfuzlu ziyalı və pedaqoq Paşa Nağıyevə düşür...**

**Tural**

